# 2025-Cİ İL ÜZRƏ "DÖVLƏT SİFARİŞİ İLƏ İSTEHSAL EDİLƏCƏK FİLM LAYİHƏLƏRİ" MÜSABİQƏSİNƏ DAİR

## REQLAMENT

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 1880 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi"nin 3.2.4-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bundan sonra Nazirlik) və Azərbaycan Respublikasının Kino Agentliyi (bundan sonra Agentlik) kinematoqrafiya sahəsində (bundan sonra müvafiq sahə) "Dövlət sifarişi ilə istehsal ediləcək film layihələri"nin (bundan sonra layihə) seçilməsi üzrə müsabiqə (bundan sonra Müsabiqə) elan edir.

Müsabiqə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və təbliğində, milli və vətənpərvərlik ruhunun formalaşmasında əhəmiyyətli rol oynayan, milli kimliyi bədii təsirli forma və nümunəvi obrazlarla nümayiş etdirən filmlərin istehsalının maliyyələşdirilməsi, habelə kino sənayesinin və müvafiq sahə ilə bağlı olan özəl sektorun nümayəndələrinin dəstəklənməsi məqsədi ilə həyata keçirilir.

## MÜSABİQƏNİN MÖVZULARI

| | |
|---|---|
| • Məşhur xadim (mədəni, ədəbi, siyasi, idman və s.) haqqında<br>• Tarixi Azərbaycan dövləti və ya tarixi hadisə haqqında<br>• Azərbaycan nağıl və ya dastanlarının motivləri əsasında<br>• Müasir innovasiya hadisələrinin qəhrəmanları haqqında<br>• Azərbaycan tarixində iz qoyan qadınlar haqqında | • Vətən müharibəsi qəhrəmanlarının timsalında Vətən müharibəsi haqqında<br>• Klassik Azərbaycan filmlərinin müasir dövrümüzə uyğunlaşdırılması<br>• Qəhrəmanı uşaq olan və uşaqlara xitab edən film<br>• Musiqili janrda film<br>• Mozalanın 55 illiyinə həsr olunmuş aktual satirik janrda film |

## MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ

Müsabiqədə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər kommersiya hüquqi şəxslər (bundan sonra – İştirakçı) tərəfindən təqdim edilən tammetrajlı bədii film layihələri iştirak edə bilər. Müsabiqəyə təqdim edilən layihə üzrə İştirakçı şirkət ilə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası arasında istehsal münasibətlərini əks etdirən müqavilənin (birgə istehsal, xidmətlərin göstərilməsi, əmlaklardan istifadə və s.) olması mütləqdir.

Müsabiqədə bir neçə hüquqi şəxs birgə iştirak edə bilər. Bu halda həmin hüquqi şəxslərdən yalnız biri İştirakçı qismində iştirak ərizəsi ilə müraciət edir. Digər hüquqi şəxslərin həmin İştirakçı ilə münasibətləri qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilələr (birgə istehsal, sponsor və s.) vasitəsilə tənzimlənir. Müsabiqədə müştərək (birgə) istehsalçı, sponsor və ya digər formada iştirak etmək istəyən xarici (qeyri-rezident) fiziki və ya hüquqi şəxslər İştirakçı meyarlarına cavab verən yerli hüquqi şəxslərlə müqavilə bağlamaqla müsabiqəyə qoşula bilər.

Beynəlxalq birgə istehsalı nəzərdə tutulan layihələr istisna olmaqla müsabiqəyə təqdim edilmiş film layihələrində müəlliflərdən (ssenari müəllifi, quruluşçu rejissor, quruluşçu operator, quruluşçu rəssam, bəstəkar) azı dördü Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər olmalıdır.

Layihənin plagiat olduğu və ya hər hansı şəkildə üçüncü şəxslərin hüquqlarını pozduğu müəyyən edilərsə, İştirakçı dərhal müsabiqədən kənarlaşdırılır. Plagiatlıq İşitrakçı qalib gəldiyi və onunla müqavilə bağlandıqdan sonra müəyyən edilərsə bağlanılmış müqaviləyə birtərəfli qaydada xitam verilir və zərərin əvəzinin ödənilməsi barədə müvafiq tədbirlər görülür.

Müsabiqəyə yalnız Azərbaycan dilində olan film layihələri təqdim olunmalıdır. Qalib layihələrə əsasən istehsal ediləcək filmlər İştirakçılarla bağlanacaq müqavilələrdə əvvəlcədən razılaşdırılmaqla Azərbaycan dilində və ya Azərbaycan dilində subtitrlərlə və ən azı ikisəsli dublyajla təmin edilmək şərtilə xarici dildə ola bilər.

Qalib layihə üzrə işlər (xidmətlər) film layihəsini təqdim etmiş İştirakçı tərəfindən həyata keçirilməlidir, hüquq və vəzifələrinin icrasını üçüncü şəxslərə ötürə bilməz.

Film layihələrinə Agentlik tərəfindən ayrılması nəzərdə tutulan məbləğlərə hədlər tətbiq edilmir.

**Film layihələri üzrə İştirakçı şirkət və müəlliflər üçün tələblər:**

| № | Ad | Tələb |
|---|---|---|
| 1 | İştirakçı şirkətə dair tələb | Şirkətin dövlət sifarişi və ya dəstəyi ilə istehsal olunmuş, bütün istehsal dövrlərini əhatə edən 1 tammetrajlı bədii film və ya uyğun janrda müstəqil 2 tammetrajlı bədii film üzrə istehsal təcrübəsi olmalıdır. |
| 2 | 1 İştirakçının təqdim edə biləcəyi maksimum layihə sayı | 5 (beş) |
| 3 | Quruluşçu rejissora dair tələb | Təqdim edilmiş layihənin janrına uyğun 2 tammetrajlı bədii filmin quruluşçu rejissoru olmalıdır. |
| 4 | Quruluşçu operatora dair tələb | Təqdim edilmiş layihənin janrına uyğun 2 tammetrajlı bədii filmin quruluşçu operatoru olmalıdır. |
| 5 | Quruluşçu rəssama dair tələb | Təqdim edilmiş layihənin janrına uyğun 2 tammetrajlı bədii filmin quruluşçu rəssamı olmalıdır. |

## MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə aşağıdakı 5 mərhələdən ibarətdir:

- 1-ci mərhələ - layihələrin ilkin qəbulu;
- 2-ci mərhələ - təqdim edilmiş layihələr üzrə tələblərin yoxlanılması və tritmentlərin bədii qiymətləndirilməsi;
- 3-cü mərhələ - layihələrin yekun qəbulu
- 4-cü mərhələ - təqdim edilmiş layihələrin yoxlanılması, iqtisadi dəyərləndirmə və ssenarilərin bədii qiymətləndirilməsi;
- 5-ci mərhələ - layihələrin təqdimatı (pitçinq) və nəticələrin elan edilməsi.

İlkin qəbul üçün nəzərdə tutulan sənədlər **1 ay ərzində** Agentlikdə (https://arka.culture.az) elektron qaydada qəbul olunacaqdır.

İştirakçı hər bir film layihəsi üçün ayrıca **https://arka.culture.az** internet səhifəsində qeyd olunan elektron müraciət formasını doldurmaqla 1 nömrəli Əlavədə göstərilən sənədləri PDF formatında təqdim etməlidir.

Müsabiqənin 2-ci mərhələsində Agentlik tərəfindən yaradılan, müvafiq sahədə fəaliyyət göstərən müstəqil mütəxəssislərdən təşkil edilmiş Seçim Komissiyası tərəfindən Katibliyin iştirakı ilə təqdim olunmuş məlumatların təhlili və yoxlanılması, tritmentlərin bədii qiymətləndirilməsi **15 gün ərzində** həyata keçiriləcək.

Təqdim edilən məlumatların tamlığına və düzgünlüyünə görə hər bir İştirakçı şəxsən məsuliyyət daşıyır. Tam və düzgün olmayan məlumatları təqdim edən İştirakçı müsabiqədən kənarlaşdırılır.

Bu Reqlamentin tələblərinə uyğun olaraq Seçim komissiyası tərəfindən 2 nömrəli əlavədəki meyarlara əsasən İştirakçının və heyətin tələblərə uyğunluğu, həmçinin tritmentin bədii qiymətləndirilməsi zamanı məqbul hesab edilmiş layihələr 3-cü mərhələyə (əsas müsabiqəyə) keçir.

3-cü mərhələdə (əsas müsabiqə) iştirak hüququ qazanan İşitrakçılar 3 nömrəli əlavədə göstərilən sənədləri **1 ay ərzində** Agentliyə (https://arka.culture.az) elektron qaydada təqdim etməlidir**.**

İştirakçı hər bir film layihəsi üçün ayrıca **https://arka.culture.az** internet səhifəsində qeyd olunan elektron müraciət formasını doldurmaqla 3 nömrəli əlavədə göstərilən sənədləri PDF formatında təqdim etməlidir.

Müsabiqənin 4-cü mərhələsində Agentlik tərəfindən yaradılan, müvafiq sahədə fəaliyyət göstərən müstəqil mütəxəssislərdən təşkil edilmiş Seçim Komissiyası tərəfindən Katibliyin iştirakı ilə təqdim olunmuş sənədlərin təhlili və yoxlanılması, ssenarilərin bədii qiymətləndirilməsi, iqtisadi

göstəricilərin dəyərləndirilməsi **1 ay ərzində** həyata keçiriləcək.

Təqdim edilən məlumatların tamlığına və düzgünlüyünə görə hər bir İştirakçı şəxsən məsuliyyət daşıyır. Tam və düzgün olmayan məlumatları təqdim edən İştirakçı müsabiqədən kənarlaşdırılır. Sənədlərin tamlığının, qanunvericiliyə və bu Reqlamentin tələblərinə uyğunluğunun yoxlanılması zamanı nöqsan və ya çatışmazlıq aşkar olunarsa bu barədə İştirakçının elektron poçt ünvanına bildiriş göndərilir. İştirakçı 5 (beş) iş günü müddətində tələb olunan sənədləri və ya məlumatları təqdim etmədikdə, Agentlik İştirakçının kənarlaşdırılması haqqında qərar qəbul edir.

Bu Reqlamentin tələblərinə uyğun olaraq sənədləri tam və düzgün formada təqdim etmiş, Seçim komissiyası tərəfindən 4 nömrəli əlavədəki meyarlara əsasən iqtisadi dəyərləndirmə və ssenarilərin bədii qiymətləndirilməsi zamanı məqbul hesab edilmiş layihələr növbəti mərhələyə keçir.

Müsabiqənin 5-ci mərhələsində Nazirlik tərəfindən yaradılan, müvafiq sahədə fəaliyyət göstərən müstəqil mütəxəssislərdən təşkil edilmiş Ekspert Şurasının və Seçim komissiyasının birgə iştirakı ilə **15 gün ərzində** layihələrin yekun (final) təqdimatı (pitçinqi) aparılır. Layihələrin təqdimatı zamanı İştirakçılar öz layihələrinin 10 dəqiqə müddətində təqdimatını edir və suallara cavab verirlər. Bu zaman iştirakçılar layihəyə aid foto və video görüntülərdən istifadə edə bilər. Göstərilən materiallar layihələrin təqdimatı günündən ən azı 3 (üç) iş günü əvvəl rəsmi mail vasitəsilə Katibliyə təqdim edilməlidir.

Bütün İştirakçıların təqdimatı tamamlandıqdan sonra Ekspert Şurası tərəfindən layihələrin sadə səs çoxluğu ilə qiymətləndirilməsi həyata keçirilir, protokol tərtib olunur və Agentlik tərəfindən təsdiq olunur.

Qalib layihələrə dair məlumat Agentliyin rəsmi internet səhifəsində dərc edilir.

## MÜSABİQƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

Qalib İştirakçı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq "Xidmətlər üzrə satınalma müqaviləsi" bağlanılır və maliyyələşmə həyata keçirilir. İştirakçı göstərilən müqaviləyə əlavə edilmiş filmin istehsal planının (iş qrafiki) və təxmini smeta dəyərinin (təklifin açıqlaması) tələblərini birtərəfli qaydada pozarsa, Agentliyin bağlanmış müqaviləyə birtərəfli qaydada xitam vermək, cərimə və zərərin ödənilməsinin tələb etmək hüququ var.

Filmin yayım və ya hər hansı digər satışından, həmçinin tərəflər arasında müqavilə imzalandıqdan sonra layihənin təxmini smeta dəyəri (təklifin açıqlaması) üzrə İştirakçının ayıracağı məbləğdən artıq olan əlavə digər gəlirlər (sponsor və s.) üzrə mənfəətin bölgüsü aşağıdakı kimi aparılır:

- Filmin istehsalı tam yekunlaşdıqdan sonra təsdiqlənmiş aktlara əsasən ümumi büdcənin 100 faizi Agentlik tərəfindən qarşılanarsa: Agentlik mənfəəti tam olaraq əldə edir və onun 25 faizədək hissəsini sonradan filmi istehsal etmiş İştirakçıya ödəmək hüququna malikdir.
- Filmin istehsalı tam yekunlaşdıqdan sonra təsdiqlənmiş aktlara əsasən ümumi büdcənin 25 faizə qədər hissəsi İştirakçı tərəfindən qarşılanarsa: Agentlik mənfəəti tam olaraq əldə edir və onun hissəsini rəsmi sənədlərə əsasən faktiki xərc nisbətinə uyğun olaraq İştirakçıya ödəyir. Bu halda Agentlik İştirakçıya ödəniləcək mənfəəti 25 faizədək artırmaq hüququna malikdir.
- Filmin istehsalı tam yekunlaşdıqdan sonra təsdiqlənmiş aktlara əsasən ümumi büdcənin 25 faizdən 50 faizə qədər hissəsi İştirakçı tərəfindən qarşılanarsa: Agentlik mənfəəti tam olaraq əldə edir və onun hissəsini rəsmi sənədlərə əsasən faktiki xərc nisbətinə uyğun olaraq İştirakçıya ödəyir.
- Filmin istehsalı üçün tələb olunan ümumi büdcənin 50 faizindən çox hissəsi İştirakçı tərəfindən qarşılanmasına hüquqların (yayım, istifadə və s.) Agentlikdə qalması şərti ilə razılıq verilə bilər. Bu halda Agentlik mənfəəti tam olaraq əldə edir və onun hissəsini rəsmi sənədlərə əsasən faktiki xərc nisbətinə uyğun olaraq İştirakçıya ödəyir.
-

***Əlavə məlumat üçün:***
*Tel.: (+99412) 525 11 28*
*E-poçt: arka@culture.gov.az*
*Ünvan: Xətai rayonu, Mehdi Mehdizadə 31, Simurq plaza, 8-ci mərtəbə*

**2025-ci il üzrə “Dövlət sifarişi ilə istehsal ediləcək film layihələri" müsabiqəsinin keçirilməsinə dair Reqlamentə Əlavə № 1**

**İştirakçı tərəfindən 1-ci mərhələdə təqdim edilən sənədlərin adlı siyahısı**

| № | Sənədin izahlı adı | Sistemdəki adı |
|---|---|---|
| 1 | İştirakçı şirkətin Reqlamentin tələblərinə uyğunluğunu və istehsal potensialını yoxlamaq üçün haqqında geniş məlumat və müstəqil istehsal etdiyi 2 tammetrajlı bədii filmin linki | Məlumat (Şirkət) |
| | | Film linki (Şirkət) |
| 2 | Quruluşçu rejissorun Reqlamentin tələblərinə uyğunluğunu yoxlamaq üçün haqqında məlumat (filmoqrafiya və şəxsiyyət vəsiqəsi) və uyğun janrda quruluşçu rejissoru olduğu 2 tammetrajlı bədii filmin linki | Məlumat (Rejissor) |
| | | Film linki (Rejissor) |
| 3 | Quruluşçu operatorun Reqlamentin tələblərinə uyğunluğunu yoxlamaq üçün haqqında məlumat (filmoqrafiya və şəxsiyyət vəsiqəsi) və uyğun janrda quruluşçu operatoru olduğu 2 tammetrajlı bədii filmin linki | Məlumat (Operator) |
| | | Film linki (Operator) |
| 4 | Quruluşçu rəssamın Reqlamentin tələblərinə uyğunluğunu yoxlamaq üçün haqqında məlumat (filmoqrafiya və şəxsiyyət vəsiqəsi) və uyğun janrda quruluşçu rəssamı olduğu 2 tammetrajlı bədii filmin linki | Məlumat (Rəssam) |
| | | Film linki (Rəssam) |
| 5 | Filmin beynəlxalq yazılış formatına uyğun tritmenti (şrift: “Courier” (“Courier new”), şriftin ölçüsü:12, səhifə sayı: 10-15) | Tritment |
| 6 | Filmin beynəlxalq yazılış formatına uyğun sinopsisi (şrift: “Courier” (“Courier new”), şriftin ölçüsü:12, səhifə sayı: 2-3) | Sinopsis |

Qeyd: Göstərilən məlumatlar pdf formatında ayrı-ayrılıqda hazırlanmalı və müvafiq xanalara əlavə edilməldir.

**2025-ci il üzrə “Dövlət sifarişi ilə istehsal ediləcək film layihələri" müsabiqəsinin keçirilməsinə dair Reqlamentə Əlavə № 2**

**Tritmentin bədii qiymətləndirilməsi və tələblərə uyğunluğun yoxlanılması üzrə**

**MEYARLAR**

| **Meyar / Bal** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İdeyanın orijinallığı | | | | | | | | | | |
| Mövzunun uyğunluğu | | | | | | | | | | |
| Layihənin əhəmiyyətliliyi | | | | | | | | | | |
| İştirakçının (şirkətin) uyğunluğu | | | | | | | | | | |
| Quruluşçu rejissorun uyğunluğu | | | | | | | | | | |
| Quruluşçu operatorun uyğunluğu | | | | | | | | | | |
| Quruluşçu rəssamın uyğunluğu | | | | | | | | | | |

**2025-ci il üzrə “Dövlət sifarişi ilə istehsal ediləcək film layihələri" müsabiqəsinin keçirilməsinə dair Reqlamentə Əlavə №3**

## İştirakçı tərəfindən 3-cü mərhələdə təqdim edilən sənədləri adlı siyahısı

| № | Sənədin izahlı adı | Sistemdəki adı |
|---|---|---|
| **1. Ümumi sənədlər** | | |
| 1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən arayış (Dövlət satınalmaları haqqında” qanunun 23.3.5.1-ci, 23.3.5.2-ci və 23.3.5.3.-cü maddələri üzrə) | Arayış (vergi) |
| 2 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətindən arayış | Arayış (müfəttişlik) |
| 3 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Yerli İcra İdarəsindən arayış | Arayış (icra) |
| 4 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Probasiya Xİdmətindən arayış | Arayış (probasiya) |
| 5 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən arayış (direktorun məhkumluğun olub olmaması barədə) | Arayış (məhkumluq) |
| 6 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən arayış (əmlak olmadıqda daxili arayış əlavə olunur) | Arayış (əmlak) |
| 7 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polis İdarəsindən arayış (nəqliyyat vasitəsi olmadıqda daxili arayış əlavə olunur) | Arayış (nəqliyyat) |
| 8 | 12 aylıq dövrü əhatə edən bank dövriyyəsi barədə arayış | Arayış (dövriyyə) |
| 9 | Texniki baza barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (baza) |
| 10 | Texniki baza icarə əsasında cəlb edilibsə təsdiqedici sənəd (müqavilə və s.) | Müqavilə (baza) |
| 11 | Oxşar işlər barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (oxşar iş) |
| 12 | Oxşar işlər barədə arayışdakı işlər üzrə təsdiqedici sənədlər (müqavilə, akt və elektron qaimə) | Müqavilə (oxşar iş) |
| 13 | 2024-cü il üzrə təchizatçı tərəfindən hazırlanmış maliyyə hesabatları (maliyyə vəziyyəti haqqında, mənfəət və ya zərər haqqında, pul vəsaitlərinin hərəkəti haqqında, kapitalda dəyişikliklər haqqında) və ya 2024-cü il üzrə mənfəət bəyannaməsi | Maliyyə hesabatı |
| 14 | Təchizatçı (İştirakçı) haqqında arayış | Arayış (Şirkət) |
| 15 | Şirkətin VÖEN-i (əsli və ya notarial təsdiqlənmiş) | VÖEN |
| 16 | Şikətin reystrdən çıxarışı (əsli və ya notarial təsdiqlənmiş) | Reyestr |
| 17 | Şirkətin nizamnaməsi (əsli və ya notarial təsdiqlənmiş) | Nizamnamə |
| 18 | Şirkətin bankdakı hesabının rekvizitləri | Bank rekviziti |
| **2. Layihəyə aid sənədlər** | | |
| 1 | İşçi qüvvəsi barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (işçi qüvvəsi) |
| 2 | İşçi qüvvəsi üzrə təsdiqedici və məlumat xarakterli sənədlər (müqavilələr, filmoqrafiyalar və şəxsiyyət vəsiqələri). Prodüser, icraçı prodüser, redaktor. | İşçi qüvvəsi məlumatları |
| 3 | Layihənin ssenarisinin müəllifliyini təsdiq edən, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyindən alınmış müvafiq şəhadətnamə | Şəhadətnamə |

| | | |
|---|---|---|
| 4 | İştirakçıya ssenari üzrə hüquqların verilməsi barədə sənəd (müqavilə, razılaşma və s.) | Müqavilə (ssenari) |
| 5 | Şirkət tərəfindən layihə üzrə təklif məktubu | Təklif məktubu |
| 6 | Layihənin təxmini smeta dəyəri (təklifin açıqlaması) (imza və möhürlü pdf, alt vərəqlər əks olunmaqla excel fayl) | Smeta (pdf) |
| | | Smeta (excel) |
| 7 | Filmin istehsal planı (iş qrafiki) | İş planı (qrafiki) |
| 8 | Əgər əlavə maliyyələşmə olarsa, layihənin maliyyələşdirilməsi barədə arayış və arayışda qeyd edilən maliyyə mənbələrini təsdiq edən sənədlər (sponsurluq və ya müştərək (birgə) istehsal müqavilələri, maliyyə məktubu, digər müqavilə və ya memorandum) (əks halda olmama barədə daxili arayış verilir) | Maliyyələşmə sənədi |
| 9 | Filmin beynəlxalq yazılış formatına uyğun ssenarisi (şrift: “Courier” (“Courier new”), şriftin ölçüsü:12) | Ssenari |
| 10 | Filmin rejissor şərhi | Rejissor şərhi |
| 11 | Filmin prodüser şərhi | Prodüser şərhi |
| 12 | Hekayənin görüntü təsviri (Storibord) | Storibord |

Qeyd: Göstərilən hər bir maddə üzrə pdflər ayrı-ayrılıqda hazırlanmalı və müvafiq xanalara əlavə edilməldir.

**2025-ci il üzrə “Dövlət sifarişi ilə istehsal ediləcək film layihələri" müsabiqəsinin keçirilməsinə dair Reqlamentə Əlavə № 4**

**İqtisadi dəyərləndirmə və ssenarilərin bədii qiymətləndirilməsi üzrə**

**MEYARLAR**

| **Meyar / Bal** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ssenarinin dramaturji keyfiyyəti | | | | | | | | | | |
| Dövlət maraqlarının ifadə olunması dərəcəsi | | | | | | | | | | |
| Milli-mənəvi dəyərlərin təbliğat imkanı | | | | | | | | | | |
| Rejissor yanaşmasının orijinallığı | | | | | | | | | | |
| Layihənin bədii-təsvir keyfiyyəti | | | | | | | | | | |
| Layihənin iqtisadi əsaslandırılması | | | | | | | | | | |
| Yayım potensialı | | | | | | | | | | |